# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №15 (85) • 23.04.2012


AzadliqRadiosu.az

**Oqtay Gülalıyevə cinayət işi açıldı**

səh.3

Natiq Cəfərli: **"Ölkədə ən şəffaf sahə elə korrupsiyanın özüdür"**

səh.6

**Генсек Совета Европы предлагает Азербайджану помощь**

səh.7

**Partiyalara büdcədən pul hansı qaydada veriləcək?**

səh.8

**Azərbaycanda plastik əməliyyatlar neçəyədir?**

səh.12

**Dünyada hərbi xərclərini ən çox artıran dövlət Azərbaycandır**

səh.15

## Maraqlı videolar

- **Jurnalist İdrak Abbasov döyülməsi barədə danışır**
- Salam Sarvan: **«İçkiyə münasibətim yaxşıdır»**
- **Pensiyaçıların etirazı**

**www.AzadliqRadiosu.az**

## Avropa Parlamentində Azərbaycanla bağlı qətnamə



***Qətnamə Ermənistanı işğal etdiyi əraziləri tərk etməyə, Azərbaycanı isə insan haqlarına hörmət etməyə çağırır***

səh.14

## Sabir Rüstəmxanlı: "Bu ölkədə divar çəkməkdən, səki düzəltməkdən başqa iş yoxdur"

*Milli Məclisin aprelin 20-də keçirilən iclasında Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı Bakı və rayonlarda küçələrin sökülməsinə etiraz edib:* «Bu ölkədə divar çəkməkdən, səki düzəltməkdən başqa iş yoxdur. Millətin pulu heyif deyil? Bu pul istehsalat əvəzinə, nə vaxta qədər küçələrə səki daşı düzməyə sərf olunacaq?».

səh.6

Yükləmə



**İctimai Palata daha bir mitinq keçirdi**

səh.9

**M.Ə. Rəsulzadə ilə bağlı M.Saakaşviliyə müraciət olundu**

səh.5

Rüstəm İbrahimbəyov: **"Hakimiyyəti xalqın susqunluğu və itaətkarlığı korlayır"**

səh.10

**Buraxılış və qəbul imtahanları birləşdiriləcəkmi?**

səh.11

# Beynəlxalq təşkilatlar İdrak Abbasovu döyənlərin tapılmasını istəyir...



İdrak Abbasov

**«Əraziyə çatanda smartfonu çıxarıb çəkməyə başladım. Elə bil məni gözləyirdilər. Hamı cumdu üstümə. Əvvəlcə telefonu əlimdən aldılar. Mən buna etiraz etdim. Sonra üstümə hücum çəkib, məni təpikləməyə başladılar. Yerə yıxılmışdım, məni tapdalayırdılar. Məni ən azı 10 nəfər vururdu. Əllərində «dubinka», taxta var idi. Onların əynində ARDNŞ-in hərbi ala-bula forması, bir də özlərinin polis formasına oxşayan formaları var idi».**

1 saylı Klinik Tibb Mərkəzinin travmatologiya şöbəsində müalicə olunan jurnalist İdrak Abbasov aprelin 18-də Sulutəpə qəsəbəsindəki «4-cü mədən» adlanan ərazidə başına gələnlər haqqında çətinliklə danışır. Arada bir az fasilə edir. Jurnalist deyir ki, döyülən vaxt ətrafda polislər olsa da, müdaxilə etməyiblər:

**«MƏNİ 15-20 DƏQİQƏ DAYANMADAN DÖYÜBLƏR»**

«Polislər kənarda idilər. Onlar məni döyəndə əvvəl-əvvəl böyrümə - başıma dəyən təpikləri hiss edirdim. Məni 15-20 dəqiqə dayanmadan döyüblər. Sonradan heç nə yadımda qalmayıb».

Həkim Almazxan Zeynalov deyir ki, İ.Abbasovun vəziyyəti kafidir. Həkim qeyd edir ki, jurnalist ətraflı müayinə olunub, sağ gözünün ətrafında, bədəninin müxtəlif yerlərində əziklər var. İ.Abbasov özü deyir ki, indi özünü nisbətən yaxşı hiss etsə də, ağrıları var:

«Həkim deyir ciddi bir şey yoxdur. Gözüm elə də ağrımır, belim, kürəyim ağrıyır. Elə bil, içalatım tökülür».

**İDRAK ABBASOVLA ARDNŞ-İN 7 ƏMƏKDAŞININ XƏSARƏT ALMASI BİRGƏ ARAŞDIRILIR...**

Daxili İşlər Nazirliyi aprelin 18-də Sulutəpədə baş verən hadisə ilə bağlı məlumat yayıb. Nazirliyin mətbuat xidmətinin əməkdaşı Ehsan Zahidovun AzadlıqRadiosuna verdiyi məlumata görə, aprelin 18-də Sulutəpə qəsəbəsində qanunsuz tikililəri sökən Dövlət Neft Şirkətinin əməkdaşlarından 7 nəfərinə xəsarət yetirilib. E.Zahidovun dediyinə görə, bu zaman sakinlərdən İdrak Abbasovla Camal Əliyev xəsarət alıb və hər iki şəxs xəstəxanaya yerləşdirilib.

DİN rəsmisinin dediyinə görə, polis sakinlərin Bakı-Şamaxı yolunun 13-cü km-də avtomobil yolunu bağlamağının qarşısını alıb. Sakinlərdən 10 nəfəri Binəqədi Rayon Polis İdarəsinin 40-cı bölməsinə aparılıb. Onlar cərimə olunandan sonra buraxılıblar.

E.Zahidov jurnalist İ.Abbasovun döyülməsi faktının ayrıca araşdırılmadığını bildirib. Deyib ki, Neft Şirkəti əməkdaşları ilə 2 nəfər qəsəbə sakininin xəsarət alması faktı birgə araşdırılır.

**«BU, QOÇULUQDUR»**

«Yeni Nəsil» Jurnalistlər Birliyinin



Arif Əliyev

sədri Arif Əliyev isə deyir ki, İdrak Abbasov döyülən vaxt əynində jurnalist jileti olub. Onun fikrincə, araşdırmada bu amil mütləq nəzərə alınmalıdır.

Dövlət Neft Şirkətinin hüquq şöbəsinin rəisi Eldar Orucov isə baş verənlərlə əlaqədar aprelin 19-da mətbuat kon-



Eldar Orucov

fransı keçirdi. Onun deməsinə görə, baş verənlərin araşdırılması üçün Neft Şirkətində komissiya yaradılıb:

**«FƏRQİ YOXDUR, O, İDRAKDIR, YA DA BİZİM ƏMƏKDAŞ»**

«Kim orada öz səlahiyyətlərini aşıb hüquq pozuntusuna yol veribsə, cinayət əməli törədibsə, onların hər biri barədə tədbir görüləcək. O, bizim əməkdaşımız olacaq, ya da başqası olacaq, fərqi yoxdur. Kim olmasından asılı olmayaraq, o, jurnalistdir, ya da adi vətəndaş, hadisənin səbəbkarı məsuliyyət daşımalıdır. Fərqi yoxdur, o, İdrakdır, ya da bizim əməkdaş».

Jurnalistləri Müdafiə Komitəsi, «Amnesty International», «Freedom House», «Sərhədsiz reportyorlar» təşkilatları Azərbaycan hakimiyyətindən İdrak Abbasovu döyən və digər reportyorlara hücum edənlərin dərhal cəzalandırılmasını tələb edib.

***Kəbiran Dilavərli***




## «Qaynar Xətt»dən hüquqşünas məsləhəti al!

Qarşılaşdığın problemlər, qanunsuz davranışla bağlı **"Qaynar Xətt"**ə yaz, hüquqşünaslardan məsləhət al. Suallara hər həftənin şənbə günü **saat 18:05-dən 19-00-a** qədər hüquqşünaslar canlı efirdə **"Qaynar Xətt"** verilişində cavab verəcəklər.

**"Qaynar Xətt"lə əlaqə vasitələri:**

İstənilən vaxtda qaynar xəttimizə - **(012) 436 77 41** nömrəli telefona zəng edib sual və şikayətinizi səsləndirə bilərsiniz. Zənglər avtomat tərəfindən qəbul olunduğundan, rica edirik şikayətinizi bildirəndən sonra əlaqə nömrənizi də deyəsiniz ki, sizinlə əlaqə saxlaya bilək.

Yalnız canlı efir zamanı hər həftənin şənbə günü **saat 18:05-dən 19:00-a** qədər **efir@azadliqradiosu.az** elektron ünvanımıza e-mail şəklində, **(+99450) 7441017** nömrəsinə SMS şəklində şikayətlərinizi yaza bilərsiniz ki, suallarınız canlı efirdə cavablandırılsın.

İstənilən vaxtda suallarınızı, problemlərinizi foruma da yaza bilərsiniz. Həmçinin cavablar sayta göndərilmiş suallara əlavə olunacaq.

# Oqtay Gülalıyevə cinayət işi açıldı

Mehman Əliyev: "Araşdırma aparanları zərərsizləşdirirlər ki, təzə ayrılan 50 milyon manatı da rahat mənimsəyə bilsinlər"


Oqtay Gülalıyev

**Aprelin 8-dən Sabirabad Rayon Polis Şöbəsinin təcridxanasında saxlanılan «Kür» Vətəndaş Cəmiyyəti Qərargahının əlaqələndiricisi Oqtay Gülalıyevə qarşı cinayət işi açılıb.**

Bu barədə AzadlıqRadiosuna Daxili İşlər Nazirliyi mətbuat xidmətinin əməkdaşı Ehsan Zahidov məlumat verib: «Sabirabad Rayon Prokurorluğu tərəfindən Oqtay Gülalıyev barəsində Cinayət Məcəlləsinin 220.2 maddəsi ilə (Hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə) cinayət işi açılıb, istintaq aparılır».

Prokurorluqdan isə deyirlər ki, işin istintaqını rayon polisi apardığı üçün bu barədə hər hansı bir məlumat verə bilməzlər. Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyev deyir ki, Cəmiyyətin Oqtay Gülalıyevə təyin etdiyi vəkilin belə bu işdən xəbəri olmayıb: «Normalda proses barədə, cinayət işinin qaldırılması və həbs-qətimkan tədbirinin seçilməsi barədə vəkilə əvvəlcədən məlumat verilməli idi. Bizə deyilir ki, prosesdə vəkil iştirak edib, amma indi dəqiqləşdiririk həmin vəkil kim olub. Bizim Cəmiyyətin təyin etdiyi vəkilə bu barədə məlumat verilməyib. Ola bilsin ki, bu, dövlət hesabına təyin edilən vəkil olub».

İntiqam Əliyev Oqtay Gülalıyev barəsində çıxarılan qərarı da ciddi qanun pozuntusu sayır.

Hesab edir ki, Oqtay Gülalıyev barəsində inzibati həbs qərarı bitəndən sonra onun barəsində həbs-qətimkan tədbiri seçilməsi işə siyasi yanaşmanın olmasından xəbər verir: «Bu, son dövrlər praktikaya gətirilib. Bu da Oqtay Gülalıyevlə bağlı işin siyasi xarakterli olmasını göstərir».

«Turan» İnformasiya Agentliyinin direktoru Mehman Əliyev də Oqtay Gülalıyev barəsində 12 sutkalıq həbsdən sonra cinayət işi açılmasını qanun pozuntusu sayır: «Bu nə deməkdir? Adamı xuliqanlığa görə tuturlar, həbsdən çıxmağına 1 gün qalmış başqa bir məsələ ilə barəsində cinayət işi açırlar».

Mehman Əliyevə görə, əslində bu hal Kür daşqınları ilə bağlı araşdırmalar aparan qeyri-hökumət təşkilatlarının gözünün qorxudulmasına hesablanıb. Onun fikrincə, aşağılarda yardımları


Mehman Əliyev

mənimsəyənlər istəyirlər ki, araşdırma aparanları zərərsizləşdirib prezidentin son günlər ayırdığı 50 milyon manatı da rahat mənimsəyə bilsinlər: «Bu, cəmiyyətə xof gəlməkdir ki, biz heç nəyin qarşısında dayanmayacağıq, həbs edəcəyik, tutacağıq».

Sabirabad polisindən isə deyirlər ki, Oqtay Gülalıyev Minbaşı bələdiyyəsinin şikayəti əsasında saxlanılıb. Bu işdə polisin qərəzindən danışmaq yersizdir. Oqtay Gülalıyevə qarşı irəli sürülən ittiham təsdiqlənərsə, o, 3 il azadlıqdan məhrum edilə bilər.

Oqtay Gülalıyev aprelin 8-də Sabirabad rayonunun Minbaşı kəndində daşqınlarla bağlı monitorinq apararkən saxlanılıb Rayon məhkəməsi onun barəsində 12 sutka inzibatı həbs qərarı çıxarıb. O, kənd bələdiyyə sədrinin şikayəti əsasında saxlanılıb. Bələdiyyə sədri Oqtay Gülalıyev tərəfindən təhqir olunduğunu iddia edir. Oqtay Gülalıyev aprelin 20-də buraxılmalı idi.

***Maarif Çingizoğlu***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


**"Şahdəniz-2" bahalı və perspektivli layihə**


Bakı- Təl- Əviv: **Bu yol səni hara aparır ?**


**Ərəb qadınlarını gözəl saxlayan hicab imiş?**


**Azərbaycanda niyə cəmi 15 faizin bankda hesabı var?**


**iPhone-5-in nə vaxt təqdim ediləcəyi bilindi**

# İdrak Abbasov yenidən hədə mesajı və zəngləri aldığını deyir



İdrak Abbasov

*Sulutəpədəki qarşıdurma zamanı xəsarət alan və hazırda xəstəxanada müalicə olunan İdrak Abbasov aprelin 19-da hədələndiyini deyib. Bu haqda jurnalist AzadlıqRadiosunun «İşdən sonra» proqramına danışıb: «Bir qədər əvvəl mənə qapalı, bilinməyən nömrədən zəng gəldi. Həmin şəxs adının Kərim olduğunu dedi. Mən Binəqədi Rayon Polis İdarəsində Kərim adlı bir nəfər tanıyıram, ya o idi, ya da başqası onun adından istifadə etdi. Hədə tonunda danışırdı, guya günah məndə olub. Düzü, qorxdum və halım da pisləşdi. Həkimlər yardım etdilər. Amma yenə də yaxşı deyiləm».*

İdrak Abbasov həmçinin ailəsinin təhlükəsizliyinə görə narahatdır. O, aprelin 19-da ailəsinin qorunması üçün rəsmi qurumlara müraciət etdiyini də deyib: «Evimizin ətrafında şübhəli maşınlar dolaşır. Evdəkilər də qorxurlar. Müxtəlif hədə-qorxular edilir, mesajlar göndərilir. Mən Daxili İşlər Nazirliyinin 102 xidmətinə müraciət edəndən sonra deyiblər ki, səni harada döyüblər?..».

İdrak Abbasov hələ də bədənində ağrılar hiss etdiyini, vaxtaşırı ona ağrıkəsici iynələr vurulduğunu bildirib. Daxili İşlər Nazirliyi mətbuat xidmətinin əməkdaşı Ehsan Zahidov isə AzadlıqRadiosuna deyib ki, aprelin 18-də Sulutəpə qəsəbəsində baş verənlərlə əlaqədar araşdırma aparılır: «İdrak Abbasov şikayət etdi-etmədi, araşdırma aparılır və bu hadisəyə hüquqi qiymət veriləcək. O ki qaldı polis əməkdaşının hədə-qorxu gəlməsinə, bu, inandırıcı görünmür. Onu hədələmək polisin nəyinə lazımdır».

***Şahnaz Bəylərqızı***

# Əli Həsənov İdrak Abbasovun döyülməsinə münasibət bildirib



Əli Həsənov

**«Azərbaycanda jurnalistə qarşı törədilmiş hər hansı təzyiq, fiziki güc və digər bu kimi addımlar Prezident Administrasiyası tərəfindən qətiyyətlə pislənilir». Bunu «SalamNews»a müsahibəsində Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov jurnalist İdrak Abbasovun döyülməsinə münasibət bildirərkən deyib.**

Şöbə müdiri bildirib ki, Dövlət Neft Şirkəti bu hadisədə iştirak etmiş şəxslərin müəyyən olunması istiqamətində addımlar atır və araşdırmalar aparır: «Hesab edirik ki, söküntü ətrafında baş vermiş hadisələr qəsdən və ya bilərəkdən jurnalistə qarşı törədilmiş hərəkət deyil, sadəcə olaraq, söküntü qarşıdurması fonunda yaranmış anlaşılmazlıqdır. Azərbaycan hakimiyyətinin mövqeyi ondan ibarətdir ki, tədbirlərin işıqlandırılması zamanı jurnalist bu və ya digər hadisələrlə bağlı foto və digər çəkilişlər aparan zaman kənarda dayanmalıdır və onlara qarşı da heç məhdudiyyət olmamalıdır».

Əli Həsənov düşünür ki, jurnalist çağırış etdiyi üçün döyülüb. Onun fikrincə, İdrak Abbasov evi sökülən şəxslərin arasında olub, kiminsə mülkünü müdafiə edib və ona görə də təzyiqlərə məruz qalıb: «İstənilən halda kiminsə həqiqətən jurnalist fəaliyyəti varsa, ona və ümumiyyətlə, heç kəsə təzyiq göstərilməməlidir. Amma bilirsiniz ki, qanunsuz tikililərin sökülməsi icazəlidir və heç kəs razılıq verilməyən ərazidə tikinti apara bilməz. Buna baxmayaraq, əminəm ki, bu hadisədə anlaşılmazlıq olub və bununla bağlı araşdırma aparılıb müvafiq tədbirlər görüləcək».

# Məhkəmə Vüqar Qonaqovun cəzasını dəyişdirmədi



Quba

*Apelyasiya Məhkəməsi "Xəyal" televiziyasının icraçı direktoru Vüqar Qonaqov barəsində seçilən həbs - qətimkan tədbirini dəyişməkdən imtina edib. V.Qonaqov barəsində həbs qərarını martın 17-də Nəsimi Rayon Məhkəməsi çıxarıb. Jurnalistin vəkilləri həbs qərarının qanuniliyini mübahisələndirməklə yanaşı, həbs cəzasının ev dustaqlığı və ya girovla əvəz edilməsi üçün məhkəmədə vəsatət qaldırıblar. Məhkəmə aprelin 14-də həmin vəsatəti rədd edib. Bakı Apelyasiya Məhkəməsi aprelin 20-də həmin qərardan verilən şikayətə baxıb. Bu barədə Media Hüququ İnstitutu məlumat yayıb. Məhkəmə prosesində Vüqar Qonaqov və jurnalistin vəkili Rəşid Hacılı iştirak ediblər. Müdafiə tərəfi məhkəmənin diqqətinə çatdırıb ki, rayon məhkəməsinin qərarı qanunsuz və əsassız olub. Müdafiə tərəfi məhkəmənin 14 aprel 2012-ci il tarixli qərarının ləğv olunmasını, jurnalist barəsində seçilmiş həbs tədbirinin ev dustaqlığı və ya girovla əvəz olunmasını xahiş etsə də, məhkəmə rayon məhkəməsinin qərarını qüvvədə saxlayıb.*

Qubadakı Xəyal TV-nin icraçı direktoru Vüqar Qonaqov, eləcə də TV-nin baş redaktoru Zaur Quliyev martın 13-də Quba olaylarının təşkilinə görə həbs olunublar. Qubanın icra başçısının çıxışını lentə alan, internet üzərindən yayan jurnalistlərə buna görə Cinayət Məcəlləsinin 233-cü (ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə) və 309-cu (vəzifə səlahiyyətlərini aşma) maddələri ilə cinayət işi açılıb.

***Maarif Çingizoğlu***


Gürcüstan prezidenti Mixeil Saakaşvili

# M.Ə.Rəsulzadə ilə bağlı Mixeil Saakaşviliyə müraciət olundu

**Azərbaycandan 8 siyasi və ictimai qurum Məhəmməd Əmin Rəsulzadənin abidəsinin Tbilisidə ucaldılması ilə bağlı Gürcüstan prezidenti Mixeil Saakaşviliyə müraciət edib. Ümumilikdə 100-dən artıq adamın aprelin 19-da imzaladığı müraciətdə M.Ə. Rəsulzadənin Bakıda heç bir abidəsinin olmaması xatırladılır. Qeyd olunur ki, Rəsulzadə təkcə Azərbaycana yox, həm də bütövlükdə Qafqaza sülh, azadlıq, demokratiya gətirən liderlərdən biridir.**

«Ölkəmizə səfəriniz zamanı bunları sizin dilinizdən də eşitmək bizə böyük qürur verdi, Sizə böyük təşəkkürlər etdik. Ona görə də M. Ə. Rəsulzadənin heykəlinin bu gün regionun azadlıq və demokratiya mərkəzinə çevrilən Tiflis şəhərində qoyulması Qafqazın tarixinə, xalqların azadlıq və demokratiya arzularına, əbədi dostluğumuza böyük bir töhfə olardı», - deyə müraciətdə bildirilir.

Qeyd olunur ki, abidənin qoyulmasına qərar verildiyi halda, müraciəti imzalayan şəxslər xərcləri ödəyə bilər. Müraciəti Azad Gənclik Təşkilatı, NİDA Vətəndaş Hərəkatı, Dalğa Gənclər Hərəkatı, Vətəndaş Həmrəyliyi, AXCP, Müsavat partiyalarının gənclər təşkilatları, İnsan Hüquqları klubu, Müsbət Dəyişiklik Gənclər təşkilatları və 10-dan artıq tanınmış gənc yazar imzalayıb.

***Maarif Çingizoğlu***

# Gəncə qəbiristanlığında Rəsulzadənin büstü


Gəncə qəbirisranlığı. Foto: "Yeni Müsavat" qəzeti

««Yeni Müsavat» qəzeti Gəncə qəbiristanlığında xəzinə tapdı» başlıqlı yazısında müxbir şəhər qəbiristanlığında Azərbaycan Xalq Cümhuriyyətinin banilərinin və bir neçə tarixi şəxsiyyətin büstünü tapıb: «Araşdırmamız nəticəsində məlum oldu ki, əslən Gəncədən olan, hazırda isə başqa şəhərdə yaşayan Hacı Adil kimi tanınan iş adamı 2011-ci ilin əvvəllərində Gəncə Şəhər İcra Hakimiyyətinə müraciət edərək, şəhərin mərkəzi parklarının və ya meydanlarının birində şəxsi vəsaiti hesabına AXC-nin banilərinin, Şah İsmayıl Xətai və digər bir neçə tarixi şəxsiyyətin heykəlini ucaltmaq istədiyini bildirib. Lakin ona park və meydanlarda abidə ucaldılmasının dövlətin işi olduğunu əsas göstərərək yer ayırmaqdan imtina ediblər. İş adamı Gəncədəki «Səbiskar» adlanan qəbiristanlıqda bir neçə qəbir üçün yer alıb. Yeri mərmər örtüyü ilə abadlaşdırdıqdan sonra tuncdan hazırlatdırdığı büstləri (Şah İsmayıl Xətai, Cavad xan, Səttarxan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri, Məhəmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Həsən bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Cahangir bəy Kazımbəyli, Xəlil bəy Rəfibəyli, Mirvahab, Abdili Əliqara Məhəmməd, Sarı Ələkbər) sıra ilə həmin yerdə ucaldıb».

# Gül bayramı ilə bağlı hazırlıqlara başlanılıb


Heydər Əliyev Sarayının qarşısındakı park

**Aprelin 20-dən Gül bayramı ilə bağlı hazırlıqlara başlanılıb. Artıq Heydər Əliyev Sarayının qarşısındakı parka bununla bağlı avadanlıqlar gətirilib.**

Parkın kənarına ötənilki bayramda çəkilmiş iri fotolar vurulub, əraziyə güllərdən hazırlanacaq fiqurlar üçün müxtəlif ölçülü karkaslar boşaldılıb. Bakı Şəhər İcra Hakimiyyətinin əməkdaşları da ərazidə iş aparmaqdadılar. 2004-cü ildən başlayaraq hər il mayın 10-da, keçmiş prezident Heydər Əliyevin doğum günündə Bakı Şəhər İcra Hakimiyyəti paytaxtda gül bayramı təşkil edir.

Hər il dekorasiyaların hazırlanmasında 50 ölkədən gətirilmiş güllərdən istifadə olunur. Həmin dekorasiyaların hazırlanmasında yerli şirkətlərlə yanaşı, xarici ölkələrdən dəvət edilmiş dizayn şirkətlərinin nümayəndələri də iştirak edir. Amma gül bayramına hər il nə qədər vəsait xərcləndiyini Bakı Şəhər İcra Hakimiyyəti açıqlamır. İcra hakimiyyətinin ötən illərdə açıqladığı məlumata görə, hər dəfə xaricdən bayram məqsədi ilə ölkəyə 1 milyon ədəddən artıq gül gətirilir. Müstəqil iqtisadçılar bu tədbirin əslində israfçılıq və korrupsiya mənbəyi olduğunu iddia edirlər.

***Maarif Çingizoğlu***

# AzadlıqFM-də müzakirələrə qoşul




Hər həftənin cümə axşamları saat 23-dən gecəyarısınadək AzadlıqRadiosunun yeni layihəsi Facebook məkanında baş verən maraqlı olayları diqqətinizə çatdırır, sosial şəbəkələrdəki yeniliklərlə sizi tanış edir, Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər ilə söhbətlər aparır. Bu yayım eyni vaxtda AzadlıqRadiosunun Facebook Fane Pageində də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. AzadlıqFM-in arxiv səhifəsi də var.

# Sabir Rüstəmxanlı: "Bu ölkədə divar çəkməkdən, səki düzəltməkdən başqa iş yoxdur"

**Milli Məclisin iclasında bir neçə deputat «Eurovision» mahnı yarışmasını pozmaq istəyən qüvvələrin olması barədə narahatlıqlarını dilə gətiriblər.**

Parlamentin sədri Oqtay Əsədov deputatların narahatlığına əsas olmadığını deyib: ««Eurovision»u istəməyənlərin arzusu gözündə qalacaq. Bu yarışma Azərbaycanda yüksək səviyyədə keçiriləcək».

Milli Məclisin aprelin 20-də keçirilən iclasında Vətəndaş Həmrəyliyi Partiyasının sədri Sabir Rüstəmxanlı Bakı və rayonlarda küçələrin sökülməsinə etiraz edib: «Bu ölkədə divar çəkməkdən, səki düzəltməkdən başqa iş yoxdur. Millətin pulu heyif deyil? Bu pul istehsalat əvəzinə, nə vaxta qədər küçələrə səki daşı düzməyə sərf olunacaq?».

S.Rüstəmxanlı deyib ki, şəhərin hər yerinin qazılması vətəndaşları ciddi narahat edir: «Mən də xalqın bu narahatlığını dilə gətirmək istəyirəm. Belə bir təsəvvür yaranır ki, Bakıda uzun illər heç bir iş görülməyib və hər işi son aylara saxlayıblar. Son aylarda isə şəhərin hər tərəfi qazılıb, səki daşları döşənir. İnsanlar küçələrdən keçə bilmir».

Deputat rayonlarda da eyni halların təkrarlandığını bildirib. Deyib ki, yeni icra başçısı təyin olunur, rayona gedən kimi ən ciddi yeniliyi əvvəlki icra başçısının tikdirdiyi divarı söküb yenisini tikmək, ondan əvvəl işləyənin qoyduğu daşı çıxarıb yerinə yenisini qoymaq olur.

S.Rüstəmxanlı «Eurovision» mahnı yarışmasına da toxunub. Yarışma üçün hazırlanan kompleksin tikintisində xaricdən gələn tanışlarının da iştirak etdiyini bildirən deputat xaricilərə azərbaycanlılardan dörd-beş dəfə artıq maaş verildiyini deyib: «Azərbaycanlıları su qiymətinə qul kimi işlədirlər, 300-400 manat verirlər. Nə vaxta qədər


Sabir Rüstəmxanlı

vətənimizdə insanlarımız bu qədər aşağılanacaq? Hansı sahəyə əl atırsan, orada Azərbaycan vətəndaşı aşağılanır. Bütün xarici şirkətlərdə, xaricilərlə azərbaycanlıların birlikdə işlədiyi bütün yerlərdə belədir».

Parlamentin vitse-spikeri Ziyafət Əsgərov da Bakıda və rayonlarda aparılan abadlıq işlərinin «Eurovision»a bağlanmasına etiraz edib. O deyib ki, bütün işlər prezidentin imzaladığı 2010-2013-cü illəri əhatə edən sosial iqtisadi inkişaf proqramına uyğun aparılır.

***İlqar Rəsul***


Arxiv foto

# Natiq Cəfərli: "Ölkədə ən şəffaf sahə elə korrupsiyanın özüdür"

**"Ölkədə ən şəffaf sahə elə korrupsiyanın özüdür." Bu iddianı AzadlıqRadiosunun "Korrupsiometr" proqramında iqtisadçı-ekspert Natiq Cəfərli səsləndirdi. Fikrini də onunla əsaslandırır ki, "onsuz da ölkədə hamı hər şeyi çox yaxşı bilir".**

Dövlət orqanlarının keçirdiyi tenderlərin şəffaflığının müzakirəsi zamanı N.Cəfərli qeyd etdi ki, bir neçə il əvvələ qədər nazirlər keçirdikləri tenderlərə özlərinə yaxın olan bir neçə şirkəti buraxırdılar. Bununla da, formal da olsa, tender görüntüsü yaradılırdı. Amma 2005-ci ildə ölkəyə neft gəlirlərinin axmasından sonra onlar heç belə formal görüntülərə də ehtiyac duymadılar:

- Yazılmamış oyun qaydaları var, sahələr artıq bir neçə oliqarx tərəfindən bölünüb. Hamı bilir ki, yolla, onun təmiri ilə bağlı işlərə girmək olmaz, çünki filankəsindir və s. Ölkəni maliyyə gücünə malik olan oliqarxlar ailəsi idarə edir, yazılmamış qanunlar işləyir, hərəsinin öz sahəsi var.

Hüquqşünas Fariz Namazlı isə tenderlərin nəticələrindən narazı qalan şirkətlərin mübahisə qaldırmadığını dedi. O, qanunvericilikdə tender qalibinin seçilməsində qərarların necə verilməsinin açıq olduğunu bildirir:

- Qanunda da göstərilir ki, qiyməti 50 min manatdan yuxarı olan satınalmalar zamanı azı üç podratçı şirkət iştirak etməklə açıq tenderlər keçirilməlidir. Rəsmi dövlət qəzetlərində tenderin keçirilməsi ilə bağlı şərtlər elan edilməlidir.

Hazırda Almaniyada yaşayan və uzun illər Azərbaycanda tenderlərlə bağlı araşdırmalar aparmış jurnalist Sarvan Rizvanov isə bu ölkədə tenderlərin keçirilməsində və işin qiymətləndirilməsində müstəqil ekspertlərin həlledici söz sahibi olduqlarını deyir:

- Almaniyada təsnifat baxımdan müxtəlif şeyləri özündə birləşdirən müstəqil ekspertlər qurumu var. Tikintinin ən adi səviyyəsindən tutmuş hər bir sahədə müstəqil ekspertlər rəylərini ortaya qoya bilirlər. Tenderdə hər hansı problem ortaya çıxarsa, bütün məsələlərə müstəqil ekspertlər cavabdehdir. Kimsə məhkəməyə müraciət edirsə, məhkəmə həmin anda müstəqil ekspertə müraciət etmək məcburiyyətindədir.

Satınalmalar üzrə Dövlət Agentliyinin nümayəndələri əvvəlcə proqrama qatılmağa söz versələr də, son anda studiyaya gəlməkdən imtina ediblər. Onlar heç telefonla da suallara cavab vermək istəməyiblər. Amma proqramda "Azəryolservis"in sədr müavini Vaqif Hacıyev və Satınalmalar üzrə Dövlət Agentliyinin şöbə müdiri Zahid Vəliyevin bir neçə il əvvəl bu mövzuda radiomuza verdikləri fikirləri səsləndirilib.

**Müzakirəni tam şəkildə AzadliqRadiosu.az saytında dinləmək olar.**

***Kamran Mahmudov, Gülər Qasımova***

# Рустам Фаталиев: "Государство должно не физическую, а нравственную силу демонстрировать народу"


Рустам Фаталиев

*«Меня зовут Рустам Фаталиев. Я сын кинодраматурга и учительницы. Сам – журналист. И я очень устал. Более я не могу сдерживать то, что копилось во мне довольно долго. Я смотрю на фотографию своего избитого коллеги и понимаю, что мы упустили шанс стать великой страной».*

Эти мысли после избиения своего коллеги Идрака Аббасова высказал главред портала Azerisport.com и спортивный корреспондент газеты "Зеркало" Рустам Фаталиев. Мы предлагаем Вам небольшое интервью с ним.

*- Рустам бей, почему вы именно сейчас говорите, что устали?*

- Дело в том, что мы с Идраком Аббасовым коллеги. Работаем вместе. Но даже если и не работали вместе, я бы не мог не реагировать на это событие. В целом, я устал от такого отношение к журналистам. Я не считаю себя политиком, далек от политики. Но журналисты сталкиваются с таким отношением не только в политике, но и даже на спортивных соревнованиях, других областях, подвергаются грубому обращению со стороны полицейских. Не только к журналистам, но и к гражданам Азербайджана, в целом, есть такое отношение.

*- Как вы думаете, на чем зиждится такое отношение к гражданам?*

- Я думаю, что некоторые люди сидят не на своем месте. Возможно, это люди без определенного образования, из-за чего и возникла такая ситуация.

*- Имеете в виду должностных лиц, чиновников?*

- Среди них есть и чиновники, и полицейские. Даже, скажу я Вам, и среди журналистов есть немало необразованных. Присутствие таких людей не на своих местах и приводит к такому результату. В последнее время мы видим, что они вмешиваются в личную жизнь одних журналистов, других избивают и т.д. Думаю, что на это уже молчать нельзя.

*- Как по-Вашему, не молчать на это, протестовать даст результат?*

- Моя нынешняя цель была выразить свое мнение. По реакции общественности, я заметил, что мой протест удался. Каков будет результат этого - это, конечно, дело времени. Но я хотел бы определенно изменить отношение к журналистам. Чтобы должностные лица, полицейские, представители служб безопасности и другие с уважением относились к работе журналиста.

*- Какие случаи отношения к гражданам Вас более всего угнетают?*

- В целом, все наблюдают грубое отношение к гражданам. Достаточно взглянуть хотя бы на одну фотографию, снятую там, где сносят дома, и станет ясно отношение к гражданам. И швыряют людей из своих домов не какие-то люди в форме, а обычные рабочие. Есть же фотографии, где эти рабочие выволакивают из своего дома 60-летнюю женщину. Эти фотографии сами все говорят. Смотришь и нет нужды в дополнительных комментариях.

*- В каких вопросах за последние годы Вы наблюдаете наибольшее нарушение прав граждан?*

- Проведение Eurovision в Баку очень позитивное событие для меня. Но если мы за рубежом заявляем о том, что можем и достойны провести такой песенный конкурс, демонстрируем свою силу, то может и своему собственному народу продемонстрируем насколько мы мощны? Речь идет о нравственной силе. Государство должно не физическую, а нравственную силу демонстрировать народу.

Другие страны за многие годы уже подвергли этот народ своей физической силе. Возможно, нет другой нации в мире, которая подверглась бы такому количеству физической силы. Поэтому, на мой взгляд, государство должно демонстрировать нравственную силу своему народу. В нынешней власти есть люди, желающие этого. Я лично знаком с такими. Но их, пока, не слышат.

***Ильгар Расул***


Турбьёрн Ягланд

# Генсек Совета Европы предлагает Азербайджану помощь

*Генеральный секретарь Совета ЕвропыТурбьёрн Ягланд в своем заявлении осудил недавнее нападение на журналистов и призвал власти Азербайджана принять предложение о помощи и экспертной поддержке в реформировании законодательства, чтобы они соответствовали стандартам, предъявляемым ко всем государствам-членам Совета Европы:*

«Недавнее нападение на журналистов, совершенное сотрудниками безопасности SOCAR, является еще одним свидетельством тому, что свобода слова в Азербайджане находится под угрозой.

Власти обязаны предпринять все возможное не только для расследования и привлечения к ответственности виновных, но и для того, чтобы журналисты могли выполнять свою работу, не поступаясь своей профессиональной честностью и не опасаясь за свою физическую целостность.

Невыполнение этих условий может еще больше поставить под сомнение репутацию страны в том, что касается уважения прав человека и основных свобод.

Несмотря на то, что в Азербайджане пройдет следующий музыкальный конкурс Eurovision, блеск и обаяние музыкального поп-шоу не может компенсировать несоблюдение обязательств, вытекающих из Европейской конвенции о правах человека.

Я призываю власти Азербайджана принять наше предложение и воспользоваться помощью и экспертной поддержкой Совета Европы в реформировании законодательства и правоприменительной практики с тем, чтобы они соответствовали стандартам, предъявляемым ко всем государствам-членам».

***Turan***

# Partiyalara büdcədən pul hansı qaydada veriləcək?

*Milli Məclisin 20 aprel iclasında «Siyasi partiyalar haqqında» qanuna dəyişikliklər qəbul olunub. «Media forum» saytının məlumatına görə, dəyişikliklərə əsasən, partiyaların maliyyələşdirilməsi üçün hər il dövlət büdcəsindən vəsait ayrılır. Partiyalara ayrılacaq pulun ümumi məbləği hər il dövlət büdcəsində ayrıca göstərilir. Vəsaitin 10 faizi irəli sürdüyü namizədlər Milli Məclisə keçirilmiş son seçkilərdə etibarlı səslərin azı 3 faizini qazanmış, lakin MM-də təmsil olunmayan siyasi partiyalar arasında qazanılmış səslərin sayına proporsional olaraq bölünür. Vəsaitin 40 faizi MM-də təmsil olunan siyasi partiyalar arasında bərabər, 50 faizi isə seçilmiş deputatlarının sayına proporsional olaraq paylanır.*

Siyasi partiyalar MM-ə seçkilərdə siyasi partiyalar bloku şəklində iştirak etdikdə ayrılan vəsait hər bir siyasi partiyaya ayrıca verilir. Başqa bir dəyişikliyə görə, siyasi partiyaların ianə qəbul etmək hüququ var. Dövlət orqanları və digər dövlət qurumları, bələdiyyə orqanları və onların tabeliyində olan qurumlar, xarici dövlətlər və xarici hüquqi şəxslər, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, yetkinlik yaşına çatmamış şəxslər, soyadını, adını, atasının adını, şəxsiyyət vəsiqəsinin seriyasını və nömrəsini göstərməyən fiziki şəxslər, hərbi hissələr, ictimai birliklər, fondlar, dini qurumlar və hüquqi şəxslər siyasi partiyaları maliyyələşdirə və onlara ianə verə bilməz.

Siyasi partiyalar tərəfindən illik maliyyə hesabatları hər il aprel ayının 1-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanına təqdim edilməlidir. Üzvlük haqqı ödəyən partiya üzvlərinin sayı da maliyyə hesabatında qeyd edilməlidir. Siyasi partiyalar illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə KİV-də dərc etdirməlidir. Başqa bir yeniliyə görə, məhkəmə siyasi partiyanın ləğvi barədə iş üzrə qərar qəbul edənə qədər müvafiq icra hakimiyyəti orqanının vəsatəti əsasında həmin partiyanın fəaliyyətini dayandıra bilər.

Sənəd prezidentin imzasından sonra qanuni qüvvəyə minəcək.

**Siyasətçilər nə deyir?**

««Siyasi partiyalar haqqında» qanun demokratik əsaslardan məhrumdur». Azərbaycan Demokrat Partiyasının



Sərdar Cəlaloğlu

(ADP) sədri Sərdar Cəlaloğlu «Siyasi partiyalar haqqında» qanuna edilən dəyişikliklərə münasibət bildirərkən belə deyib: «Siyasi partiyaların iştirakı təmin olunmadan qəbul edilib. Avropa normativ qanunları ilə bir araya sığmır. Bu qanunun Azərbaycanda hansısa müsbət dəyişikliyə gətirib çıxaracağına inanmıram».


Əli Əhmədov

Hakim Yeni Azərbaycan Partiyasının icra katibi Əli Əhmədov isə hesab edir ki, «Siyasi partiyalar haqqında» qanuna edilən dəyişikliklər Azərbaycanda siyasi islahatların tərkib hissəsi kimi qiymətləndirilməlidir: «Beləliklə də siyasi partiyalar daha sivil, səmərəli və ictimai dəstəyi qazanmaq imkanı yaradan formada fəaliyyət göstərə biləcək».

Müsavat Partiyasının da qanuna münasibəti mənfidir. Partiya başqanının müavini Gülağa Aslanlı deyir ki, dəyişikliklər nə demokratikliyi, nə də siyasi partiyaların inkişafı baxımından normalara cavab verir.

***Maarif Çingizoğlu***


Belarus - State flag, undated

# Bakı Şəhər İcra Hakimiyyəti Belarusun dövlət bayrağını 15 000 dollara alıb

**Satınalmalar üzrə Dövlət Agentliyinin 2011-ci ildə keçirdiyi tender siyahısında göstərilib ki, Bakı Şəhər İcra Hakimiyyətinin Xarici Əlaqələr və İnvestisiya Proqramları Departamenti Belarus Respublikasının bayraqlarının alınmasına 11 min 800 manat xərcləyib. Fövqəladə Hallar Nazirliyi 7 min 434 manata xarici ölkələrin bayraqları, Vergilər Nazirliyi 5 min 911 manata lövhə və bayraqlar, Gənclər və İdman Nazirliyi 3 min 900, Müdafiə Nazirliyi 45 min 600 manatlıq bayraq alıb. Milli Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutuna isə muzey və bayraq guşəsinin təşkili 4 min 500 manata başa gəlib.**

Mədəniyyət və Turizm Nazirliyi ikitərəfli bayraqların hazırlanmasına 20 min manat, Azərbaycan Turizm İnstitutu isə həyətdə bayraqların qurulmasına 11 min 841 manat xərcləyib. Gənclər və İdman Nazirliyi Bakıda 4 noyabr 2011-ci ildə "9 Noyabr Dövlət Bayrağı Günü" münasibətilə "Bayraq festivalı"nın keçirilməsinə və təşkilinə ümumilikdə 45 min 410 manat xərcləyib.

"Qərənfil" və Eşitmə Qabiliyyəti Pozulmuş Uşaqların Respublika İxtisaslaşdırılmış Körpələr Evi-Uşaq Bağçaları Bayraq bayramının təşkilinə ümumilikdə 4 min manat xərcləyib. Bunlar Satınalmalar üzrə Dövlət Agentliyinin saytında göstərilən bayraq tenderləri haqqında məlumatlardır.

***Nüşabə Fətullayeva***

# İctimai Palata daha bir mitinq keçirdi



**Aprelin 22-də İctimai Palata iki həftə əvvəl aksiya keçirdikləri yerdə - Bakının "20-ci sahə" adlanan ərazisində mitinq keçirib. Mitinq Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılıb. Polis aksiyaya gələnləri meydana yoxlayıb buraxıb, ancaq azyaşlıların aksiyanın keçiriləcəyi yerə daxil olmasına icazə verməyib. Azyaşlıların valideynləri ilə polis arasında buna görə mübahisələr yaranıb.**

**NƏQLİYYAT PROBLEMİ ?**

Şəhərin müxtəlif istiqamətlərindən 20-ci sahəyə doğru marşrutların hərəkətində problem yaranması ilə bağlı AzadlıqRadiosuna şikayətlər gəlib. Nəqliyyat Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Namiq Həsənov telefon zənglərinə cavab vermədiyi üçün məlumata aydınlıq gətirə bilmədik.

Analoji problem İctimai Palatanın iki həftə əvvəlki aksiyasında da yaşanmışdı. Mitinqə gələnlərin arasında "Eurovision" və Geyparad Azəri xalqına ləkədir», «Dinimizə toxunmayın» şüarları tutanlar da var.

AXCP sədrinin müavini Həsən Kərimov bildirib ki, "Sahil" metrostansiyası "Azneft" meydanı, Lökbatan və Badamdar istiqamətlərində mitinq keçiriləcək əraziyə gələn marşrut avtobuslar dayandırılıb. Aksiyaya gələnlər "Azneft" meydanından və Bayıl istiqamətindən piyada hərəkət edirlər.

**GÖYÇAY MÜXALİFƏTÇİLƏRİ POLİSƏ APARILIB**

Aprelin 22-də Bakıda keçiriləcək mitinqə gəlmək istəyən Göyçay müxalifətçilərinin bəziləri rayon polis şöbəsinə aparılıb. Bu barədə AzadlıqRadiosuna göyçaylı hüquq müdafiəçisi Oqtay İsgəndərov məlumat verib. Onun sözlərinə görə, Ucarda yol polisi əməkdaşları saxlayıb və tələb edib ki, Göyçay polis şöbəsinə getsinlər:

«Dedilər ki, sürücü yol-hərəkət qaydasını pozub. Cavab verdik ki, əgər belədirsə, onda sürücü və maşını aparın, amma bizi də buraxmayıb Göyçay polis şöbəsinə gətirdilər, burda isə bizə dedilər ki, Bakıda mitinq başlayan saata qədər sizi buraxmayacayıq».

<u>İSA QƏMBƏR:</u> **«BİZ BURA AZADLIQ UĞRUNDA MÜBARİZƏYƏ GƏLMİŞİK»**

İctimai Palatanın üzvü İbrahim İbrahimli tribunadan söyləyib ki, həm rayonlardan gələn, həm də şəhərdən gələn avtobusların qarşısı alınır.



Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı deyib: «Generatoru səsgücləndiriciyə birləşdirən kimi səsgücləndirici tamamilə sıradan çıxdı. Növbəti səsgücləndiricini gətiririk».

Mitinq aksiyaçıların «İstefa» şüarları ilə başlayıb. İctimai Palatanın üzvü İbrahim İbrahimli bildirib ki, sizin «Azadlıq» şüarlarınız İlham Əliyevi qorxuya, təlaşa salıb: «Bunun nəticəsidir ki, İlham Əliyev Bibiheybət ərazisindəki bu meydana həqarətlə baxdı. Bizə Azərbaycanın hər bir guşəsi əzizdir».

Mitinqdə ilk çıxış edən Müsavat Partiyasının başqanı İsa Qəmbər bildirib ki, «Qələbəmizə arxayınıq. Çünki gənclik, xalq bizimlə bir yerdədir. Xalq bu gün bu hakimiyyətdən bezib. Əliyev rejimi üçün hakim ideologiya görməmişlikdir. Xalq dəyişiklik istəyir. Hakimiyyətin ətrafında demək olar ki, qalan yoxdur. Ziyalılar çalışırdılar ki, hakimiyyətlə xalq arasında körpü rolunu oynasınlar, müxalifətlə hakimiyyət arasında dialoq təşkil edirdilər. Son illərdə xalq hakimiyyət arasında uçurum o qədər dərinləşib ki, hakimiyyətin yanında ziyalıların kiçik bir azlığı qalıb. İctimai Palata ilə Ziyalılar Forumunun birgə danışıqlarının nəticələrini görəcəyik. İlham Əliyevin hakimiyyəti məğlubiyyətə məhkumdur. Dünya bu gün bizimlə bir yerdədir. 10 il əvvəl totalitarizmin yanında oldu. Bu gün dünya haqqı-ədaləti müdafiə edir».

İsa Qəmbər bildirib ki, dünya demokratları ilə birgə əməkdaşlığımız Azərbaycanda da, Cənubi Qafqazda da sülhün, demokratiyanın qələbəsinə gətirib çıxaracaq.

Aksiyaçılardan biri Yeganə Hacıyeva qulağına Arif Hacılının şəkli olan sırğa taxıb. Deyib ki, məqsədi daha çox insanın Arif Hacılının həbsdə olmasına cəlb etməkdir.

**MÜLKİYYƏT HÜQUQLARI POZULMUŞ SAKİNLƏR MİTİNQDƏ**

Mitinqdə mülkiyyət hüquqları pozulmuş Bakı sakinləri də iştirak edib. Bildiriblər ki, hökumət onlara evlərinin qarşılığında qəpik-quruş verir. Mitinqə qulaqdan əlillər də qatılıb. Onlar əllərində «38 manata yaşamaq olmaz» şüarları tutublar.



<u>ƏLİ KƏRİMLİ:</u> **«İLHAM ƏLİYEV MƏĞLUB OLACAQ»**

AXCP sədri Əli Kərimli mitinqdəki çıxışında bildirib ki, artıq hakimiyyət qorxu içindədir: «İqtidara xaricdən dəstək olmayacaq. Azərbaycan xalqı iki dəfə demokratiyanı qurdu, üçüncü dəfə də quracaq. Bu mübarizə davamlı olacaq».

Əli Kərimli bildirib ki, İlham Əliyev bu meydanla bağlı çıxışında xalqı aşağıladı: «Qorxuya düşmüş komandasına ürəkdirək vermək istəyir. Bütün avtoritar liderlər sonda belə edirlər. Uçuruma gedərək məğlub olurlar, İlham Əliyev də məğlub olacaq».

Sonda mitinqin qətnaməsi oxunub. Növbəti aksiya mayın 6-na təyin edilib.

# Rüstəm İbrahimbəyov: "Hakimiyyəti xalqın susqunluğu və itaətkarlığı korlayır"



Rüstəm İbrahimbəyov

**"Oskar" mükafatlı kinossenarist, yazıçı, Ziyalılar Forumunun rəhbərlərindən olan Rüstəm İbrahimbəyovun AzadlıqRadiosuna müsahibəsi (Müsahibə rus dilində götürülüb)**

*- Rüstəm bəy, 2 il əvvəl AzadlıqRadiosuna verdiyiniz müsahibədə demişdiniz ki, İlham Əliyevə alternativ görmürsüz və öz mövqeyinizi izah etmişdiniz. Bir müddət sonra başqa bir müsahibənizdə dediniz ki, Mehriban Əliyeva - real alternativ ola bilərdi. Bu günün reallıqlarını nəzərə alaraq həmin məsələ ilə bağlı nə demək istərdiniz?*

- Mən "Prezident kimi İlham Əliyevə alternativ görmürəm" deyəndə indi bizim mövcud olduğumuz ictimai-siyasi konteksti nəzərdə tuturdum. Yəni real oyunçular var, onlar seçkidə iştirak edə bilərlər, seçkilər də elə keçirilir ki, müəyyən qrup insanlar onların nəticələrini istədikləri kimi təqdim edirlər. Deyirdim ki, hətta bu variantda da hakimiyyətin İlham Əliyevə alternativ kimi namizədliyini irəli sürəcəyi insanlar arasında mən onun səviyyəsində olan şəxs görmürəm. Çünki onun ətrafındakı komanda, belə deyək də, nəyəsə qadir olan adamlar deyil. Digər siyasi fiqurları onlar müxtəlif bəhanələrlə prosesə yaxın buraxmayacaqlar. Buna görə də, necə deyərlər, pislərin içində ən az ziyanlısını seçmək lazımdır. Mən bu məntiqdən çıxış edirdim.

*- Pislərin içində ən az ziyanlısı?..*

- Bəli. Digər tərəfdən, mən Konstitusiyaya edilən dəyişikliklərdən çox məyus oldum. Referendum və müxtəlif cür başqa bicliklərlə – mən bunun təfərrüatını bilmirəm – prezidentin üçüncü dəfə seçilməsinə imkan yaradıldı. Bax, onda mən dedim ki, bu, Azərbaycanın beynəlxalq imicinə zərbə vurur və biz öz imzamızla rəsmən təsdiqləyirik ki, artıq demokratik dövlət deyilik, burada avtoritar rejim diktaturaya çevrilməkdədir. Dedim ki, Rusiyada Medvedevlə bağlı bu məsələni ki, fikirləşib tapıblar, yəni iqtidar hakimiyyəti əldən vermək istəmir, bir alternativ fikirləşib tapır, müəyyən oyun oynayır (bu oyunu da bir çoxları başa düşürdü və indi də bunun həqiqət olduğuna əmin oldular), buna oxşar şeyi burada da etmək olardı. Mənim Mehriban xanıma böyük simpatiyam var – yəni onlar bu "dekorativ" yerdəyişməni burada da edə bilərdilər. Və bu, heç olmasa ölkədə baş verənlərin mahiyyətini pərdələmiş olardı.

O ölkə ki, faktiki olaraq dar bir dairə tərəfindən özəlləşdirilib. Mən məhz bunu nəzərdə tuturdum. Bu gün vəziyyət dəyişməyib. Müxalifət hakimiyyətlə ciddi rəqabət aparmağa qadir deyil. Buna görə də mən onlardan heç birinin adını çəkmirəm. Baxmayaraq ki, onlar arasında hörmətli insanlar var və mənim onlara münasibətim yaxşıdır. Amma mən anlayıram ki, onların seçkidə qalib gəlmək üçün real şansları yoxdur. Xüsusən də seçkilərin necə keçirildiyini bildiyim üçün. Ona görə də bunu məyusluqla deyirəm – bu gün də alternativ görmürəm.

Əgər seçkilər normal, ədalətlə keçirilsəydi, namizədlər çox olardı. Özü də ciddi, dərin, ağıllı namizədlər. Onlarla dünya da hesablaşardı. Çox layiqli namizədlər olardı. Amma mən reallığa əsaslanıram.

*- Axır yarım ildə Ziyalılar Forumu fəaliyyətini gücləndirib. Siz də forumdakı fəaliyyətinizi genişləndirmisiniz. Forumda iştirakınız yaradıcılığınıza təsir edirmi?*

- ...Bu yaxınlarda mitinqə getdim. Bunun da Foruma aidiyyəti yoxdur. Mən Bakıya ayın 7-də gəlmişdim, mitinq xəbərini eşitdim və 7 illik fasilədən sonra ilk dəfə keçirilən icazəli mitinqə qatılmaq qərarı verdim. Düşünürəm ki, belə bir yerdə keçirilməyə məcbur etməklə mitinqin səviyyəsinə ciddi zərbə vurdular! Bu nəinki 20-ci sahədir, 20-ci sahənin ən pis yerlərindən biridir. Hansısa sürücülük məktəbidir, ora birbaşa yol yoxdur, ora gedib çıxmaq çox çətindir, yəni uzun bir məsafəni piyada qət eləmək lazımdır və s.

Amma buna baxmayaraq, ora bir neçə min adam toplaşmışdı. Mən ora getməyi öz vətəndaş borcum saydım. Özü də çox həvəslə getdim. Getdiyimi heç dostlarım da bilmədi. Təsadüfən Eldar Namazov bundan xəbər tutdu və biz birlikdə gedəsi olduq. Bu, sıravi bir azərbaycanlının, Azərbaycan ziyalısının hərəkəti idi. Mitinqdə danışılanlara xüsusi əhəmiyyət vermədən öz dəstəyini nümayiş etdirmək istəyən ziyalının. Vacib olan - orada xalqın fikrinin ifadə olunması və buna icazə verilməsi idi. Bu işə dəstək vermək lazım idi ki, bunun hamıya maraqlı olduğu aydın olsun.

*- Forumun fəaliyyəti sizin ona sərf etdiyiniz vaxt və enerjiyə dəyərmi?*

- ...Fikrimi deməyim mənim qələbəmdir. Mənim nail olmaq istədiyim elə budur. Məqsəd odur ki, nə qədər qəribə səslənsə də, indiki hakimiyyəti xilas etmək istəyirəm. Nəyi nəzərdə tuturam? Mən konkret insanları nəzərdə tutmuram. Mən inqilablardan qorxuram. Mən və mənim yoldaşlarım çalışırıq ki, Azərbaycanda baş verən biabırçılıqlar getdikcə aradan qalxsın, Azərbaycanda Yaxın Şərqdə baş verən və təkrarlanan hadisələr baş verməsin. Çünki bütün inqilablar zamanı – biz inqilab uşaqlarıyıq və bunun nəylə nəticələnəcəyini yaxşı bilirik – hadisələr nəzarətdən çıxır, hər iki cəbhədən ən yaxşı insanlar ölür.

Buna görə də biz Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasına çalışırıq. Çünki güclü vətəndaş cəmiyyətinin formalaşacağı, demokratik mühitdə xalqın dəstəyinə arxayın olacağımız, passivlik göstərmədiyimiz halda hakimiyyət vətəndaş cəmiyyətinin fəal şəkildə irəli sürdüyü tələblərlə hesablaşmalı olacaq. Bu, çox vacib məsələdir. Çünki kimlərisə yenidən tərbiyə etməyə ümid yoxdur, onları indi başqaları ilə əvəzləmək o qədər də real deyil. Amma onları hansısa ictimai, demokratik normaları yerinə yetirməyə məcbur etmək mənə az-çox real görünür.

Rusiyada baş verən və bizim də təqlid etməyə çalışdığımız hansısa kiçik dəyişikliklər də göstərir ki, insanlar Bolotnaya meydanına çıxandan, fikrini deyəndən sonra hətta Putin kimi çox möhkəm, nə istədiyini bilən adam da dərhal nələrəsə yenidən baxmağa başladı. Deyir «Ağlamayan uşağa süd verməzlər». Hakimiyyəti xalqın susqunluğu və itaətkarlığı korlayır.

Təəssüf ki, mitinqdə çox az ziyalı gördüm. Mən başa düşürəm ki, bizdə orta təbəqə yoxdur. Mitinqə gələ biləcək insanlar- müəllimlər, mühəndislər, həkimlər işlərini itirməkdən qorxurlar və risk etmirlər. Təəssüf. Çünki mitinq daha çox təhsilli, nə istədiyini bilən insanların işidir, sadəcə kütlənin deyil.

**Müsahibənin tam mətnini AzadlıqRadiosu.az saytında oxumaq olar.**

***Çingiz Sultansoy***

# Buraxılış və qəbul imtahanları birləşdiriləcəkmi?



Arxiv foto

## Orta məktəblərdə buraxılış imtahanlarını da TQDK aparacaq

### «BURAXILIŞ VƏ QƏBUL İMTAHANLARININ BİRLƏŞDİRİLMƏSİ BU İLİN İŞİ DEYİL»

Bundan sonra orta məktəblərdə buraxılış imtahanını da Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) aparacaq. Prezident bu haqda fərman imzalayıb. İndiyədək buraxılış imtahanlarını Təhsil Nazirliyi aparırdı. TQDK sədri Məleykə Abbaszadə isə dəfələrlə Təhsil Nazirliyini tənqid edirdi. O deyirdi ki, buraxılış imtahanlarında yüksək qiymət alan şagirdlər ali məktəbə qəbul imtahanlarında bu nəticəni göstərə bilmirlər. Dövlət Komissiyasının mətbuat xidmətinin rəhbəri Elnur Nağızadəyə ilk sual da bununla bağlı olur:

*- Demək olarmı ki, bundan sonra buraxılış və qəbul imtahanlarındakı nəticələr üst-üstə düşəcək?*

- Ümidvarıq. Buraxılış imtahanlarının nəticələri ilə qəbul imtahanları arasında həmişə ciddi fərqlər olurdu. Bununla bağlı həmişə elmi-statistik təhlillər aparılırdı, ictimaiyyətə də məlumatlar bildirilirdi. Ümidvarıq ki, bundan sonra imtahan nəticələri üst-üstə düşəcək. Gələcəkdə ola bilsin buraxılış imtahanının nəticələri qəbul imtahanlarında nəzərə alınsın. Ancaq 2 imtahanın birləşdirilməsi, vahid imtahan keçirilməsi bu ilin işi deyil. Gələcəkdəsə olacaqmı-olmayacaqmı, zaman göstərər.

### MİSİR MƏRDANOV MÜNASİBƏT BİLDİRMƏYİB

Təhsil naziri Misir Mərdanov isə prezidentin fərmanına – nazirliyin bir sıra səlahiyyətlərinin TQDK-ya verilməsinə münasibət bildirməkdən imtina edib.

«Bu gün bu məsələni müzakirə etməməliyik. Hər birimizin borcu dövlət başçısının fərmanlarını vaxtında həyata keçirməkdən ibarət olmalıdır», - deyə nazir aprelin 20-də jurnalistlərin suallarına cavabında belə deyib.

### «HANSI İMTAHANI GÖZLƏYİRDİLƏR, O DA OLACAQ»

Buraxılış imtahanlarına çox az qalıb. Tədris ilinin sonunda belə dəyişiklik bəzi valideyn və müəllimlərin narahatlığına səbəb olub. Türkan Qurbanova da 11-ci sinifdə oxuyur. Anası Tənzilə xanım deyir ki, belə qəfil dəyişikliyin uşaqların psixologiyasına mənfi təsir göstərəcəyindən, imtahanqabağı əlavə gərginlik yaradacağından narahatdır: «Əlbəttə, çox narahatam. Necə olacaq, necə imtahan verəcək? Qalmışıq belə... Türkan sinifkomdur, hər gün dərsdə olub. Amma əsas 5 fəndən hazırlaşıb. Yalandan deyə bilmərəm ki, hamısından qüvvətlidir».

TQDK-nın mətbuat xidmətinin rəhbəri Elnur Nağızadə isə deyir: «Biz düşünmürük ki, əlavə gərginlik yarana bilər. Hansı imtahanı gözləyirdilər, həmin imtahan da olacaq. Bu imtahanlarda da, qəbul imtahanlarında olduğu kimi, şəffaflıq, obyektivlik təmin olunacaq. Bundan da şagirdlər narahat olmasın».

Elnur Nağızadə imtahanın keçirilməsi, məzmunu ilə bağlı dəyişikliklər olacağını istisna etmir. Amma deyir ki, hələlik bu haqda qərar yoxdur.

### VURĞUN ƏYYUB: «GEC DƏ OLSA, DÜZGÜN ADDIMDIR»

Bu dəyişikliyi təhsil üzrə ekspertlər müsbət dəyərləndirirlər. TQDK-nın sabiq sədri Vurğun Əyyub: «Buraxılış imtahanlarında o qədər mənfi hallar baş verib ki, gec-tez bu addım atılmalıydı. Hələ ləngiyiblər. Gec də olsa, düzgün addım atılıb. Həm orta məktəbdə qazanılan biliklərin qiymətləndirilməsini, həm də abituriyentlərin biliklərinin qiymətləndirilməsini eyni qurumun aparması daha məqsədəuyğundur».

### «QƏBUL VƏ BURAXILIŞ İMTAHANI BİRLƏŞDİRİLMƏSƏ, BU ADDIMIN FAYDASI YOXDUR»

Prezidentin son fərmanından sonra indi ekspertlər əmindirlər ki, illərdir onların səsləndirdiyi bir təklif gerçək olacaq. Yaxın illərdə orta məktəblərdə buraxılış və ali məktəblərə qəbul imtahanı birləşdirilə bilər. Əlövsət Osmanlıya görə, bu, baş verməsə, həmin addımın heç bir faydası olmayacaq: «Yəqin ki, bu il və ya gələn il buraxılış və qəbul im-



Vurğun Əyyub

tahanları ayrı-ayrı olsa da, sonra birləşdiriləcək. Doğru deyil ki, uşaq buraxılış imtahanı verir, bir ay sonra da qəbul imtahanı başlayır. İndiyədək beynəlxalq ekspertlərin də bununla bağlı iradları vardı. Məncə, sonuncu məhz belə olacaq».

TQDK rəsmisi Elnur Nağızadə isə bu haqda qəti fikir demir. «Bunu söyləmək üçün əlimizdə əsas yoxdur. Hələ mövcud qaydalara əsasən imtahanlar aparılacaq. Gələcəkdə hər hansı qəbul olacaq, indidən bilmirik» deməklə kifayətlənir.

### İSLAHATLAR OLACAQMI?

«XXI əsr» Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyevə görə, buraxılış imtahanlarını TQDK kimi cəmiyyətdə rəğbət qazanmış qurumun aparması alqışlanmalıdır. Onun fikrincə, hətta bu addım təhsildə ciddi islahatlara start işarəsi ola bilər: «20 min şagirdin attestat ala bilməməsi, əlaçıların 0-100 bal topla-



Etibar Əliyev

ması, nazirlik qarşısında buraxılış imtahanları ilə bağlı valideynlərin piketləri göstərirdi ki, qiymətləndirmədə ciddi qüsurlar var. Korrupsiya var. Bu gün məktəb ölüb. Ona o qədər alternativ təşkilat yaranıb. Hər yerdə tədris mərkəzlərinin reklamı gedir, yazırlar ki, bizim uşaqlar 600-700 bal yığıblar. Bəs məktəbin nailiyyəti hanı? Əslində qiymətləndirmə texniki məsələdir. Buna qədər ciddi islahatlar aparılmalıdır. Dövlət hər uşağa 1000 manat ayırır. Bu pul onun 2 almasınamı gətirməlidir?».

Vurğun Əyyub isə hesab edir ki, islahatlar daha çox siyasi iradəyə bağlıdır.

# Azərbaycanda plastik əməliyyatlar neçəyədir?

17 YAŞLI MİNARƏ:

**«KOMPLEKSLƏRİM VARDI»**

«Güzgüyə baxırdım və özümü bəyənmirdim». Həmsöhbətim 18 yaşlı Minarə Məmmədova belə deyir. Ona elə gəlirmiş ki, burnu çox uzundur. Buna görə də 17 yaşında qəti qərar verib. Təbiət ona qarşı xəsislik edibsə, o da istədiyi buruna həkimlərin köməyilə sahib olacaq: «Həm rahat nəfəs ala bilmirdim, həm də ki, komplekslərim vardı. Ona görə də əməliyyata üz tutdum. İnsan həyatında elə şeylər olur. Güzgüyə baxırsan və üzün özünə xoş gəlmir. Onda da əməliyyata üz tutursan».

Əməliyyatdan sonra Minarə tamam dəyişdiyini və güzgüdə özünə baxmaqdan zövq aldığını deyir: «Özümü daha rahat və əmin hiss edirəm».

**3 MİN MANATA BURUN ƏMƏLİYYATI**

Azərbaycandakı plastik cərrahlara inansaq, pasiyentlərin çoxu burunlarını əməliyyat etdirmək üçün müraciət edirlər. Estetik, Plastik və Rekonsturktiv Cərrahlar Cəmiyyətinin üzvü, «Funda» Tibb Mərkəzinin həkimi Camal Əzimzadə də bu fikirdədir. Deyir ki, müraciət edənlərin çoxu rinoplastika – burun formasını dəyişmək üçün gəlirlər.

**- Qafqazlıların əbədi problemi?**

- Ümumiyyətlə, tək bizdə yox, dünya miqyasında ən çox burun əməliyyatı üçün müraciət edirlər.

**- Ən az təhlükəlisi də yəqin budur...**

- Yox, elə demək olmaz, əməliyyatdır. Ağrısı da olur, fəsadı da. Bilinmir ki, bədən üzərində müdaxilə hansı fəsada, nöqsana gətirə bilər.

**- Dediniz ki, burun əməliyyatı üçün müraciət edənlər birinci yerdədirlər. Bəs başqa hansı əməliyyatlara üstünlük verirlər?**

- Burundan sonra bədəndən piy xaric edilməsi, üzdə əməliyyatların sayı 2-3-cü yerdədir. Süd vəzilərinin böyüdülməsi və axır vaxtlar sağrıların böyüdülməsinin sayı artıb.

**- Bu əməliyyatlar neçəyə başa gəlir?**

- Burun əməliyyatı 850 manatdan başlayır. Baxır kim necə edir. Bizdə 1000-1200 manatdır. Başqasında 1500 manatdır, elə klinika var 3000 manatdır.

**«KLİNİKA HANSI QİYMƏTİ QOYURSA... PASİYENT RAZILAŞA DA BİLƏR, RAZILAŞMAYA DA»**

**- Bu nədən asılıdır?**

- Heç nədən. Klinika hansı qiyməti qoyursa... Pasiyent razılaşa da bilər, razılaşmaya da.

**- Süd vəzilərinin əməliyyatını neçəyə aparırsız?**

- Orta qiymət 2500 manatdır.

Başqa bir klinikada – «Xətai»də



burun əməliyyatları, süd vəzilərində dəyişiklik 1500 manatdan başlayır. Göz ətrafındakı qırışları yığışdırmaq 800-1000, bədəndən artıq yağların götürülməsi 1500 manata başa gəlir. Abdominoplastikanın qiyməti isə 2000 manatdan başlayır. Abdominoplastika və ya qarın plastikası bədən korreksiyasının bir üsuludur.

**«ADAM DAXİLƏN CAVANLAŞIR»**

Yaşı 40-a çatan Nərminə də bu əməliyyatdan keçib. Deyir ki, onu cərrah bıçağı altına itələyən ikinci övladının dünyaya gəlişindən sonra kökəlməsi olub. İndiki görkəmindən məmnun qalan Nərminə Sədrəddinova özünü 20 yaşlı qız kimi hiss etdiyini söyləyir. Bu əməliyyata təxminən 3000 manat xərcləyib. Dediyinə görə, Rusiyada qiymətlər daha bahadır. Burdasa həkim ona endirim edib:

- Doğuş «fartuku» yaranmışdı, onu götürdü həkim.

**- Onu başqa yolla götürə bilərdizmi? Məsələn, idmanla, pəhrizlə...**

- Mən 8 ilə yaxındır idmanla məşğulam. Aerobika, masaj. Amma onu yığmaq mümkün deyildi. Bir də məsələ əməliyyatla bitmir. Əməliyyatdan sonra qarına piy yığılmasa da, başqa yerlər kökələ bilər. Ona görə daim idmanla məşğul olmalısan.

**- Bu əməliyyatdan sonra həyatınızda nəsə dəyişdimi?**

- Əlbəttə! Çox. Daxili cavanlaşma gedir adamda. Paltar geyirsən, onun duruşu xoşuna gəlir. Əvvəlki cavan görkəmi alırsan.

**- Başqa əməliyyat aparmaq istəməmisiz?**

- Çox. Bu əməliyyatın xüsusiyyəti odur ki, yenə də dəyişiklik istəyirsən. Kaş mən o vaxt 2 əməliyyat etdirəydim.

**GÜNƏ 2-3 ƏMƏLİYYAT**

*Bakıda plastik əməliyyat aparan klinika və mərkəzlərin sayı getdikcə artır. Təxmini hesablamalar zamanı 20-dən artıq klinikada belə əməliyyat keçirildiyi məlum olur. Bəziləri mətbuata açıq deyil. Bu klinikalardan yerli mütəxəssislərə üstünlük verən də var, xaricdən cərrah dəvət edən də. Söhbət etdiyimiz xanımlar yerli cərrahlara üz tutsalar da, bəzən məhkəməyə üz tutan pasiyentlər də az olmur. Cərrah Camal Əzimzadə bunu gizlətmir də.*

**- Sizdən narazı pasiyentlər olubmu?**

- Şübhəsiz. Bu, normadır. İstər Azərbaycanda, istər xaricdə, bu, normal sayılır. Bir var texniki səhv olsun, bir də var bədənin özündən yaranmış fəsad. Texniki səhvdirsə, həkim düzəldir.

Camal Əzimzadə son illər Azərbaycanda plastik əməliyyata gedənlərin sayının artdığını deyir. Artıq kişilərin də qadınlar qədər görkəmlərinin qeydinə qaldıqlarını deyir: «Şübhəsiz, kişilərin sayı artıb. Amma qadınların sayı yenə də çoxdur...».

Kim deyir ki, zorla gözəllik olmur. Pulun varsa, olurmuş...

***Şahnaz Bəylərqızı***

**Korrupsiometr**
Qapalı meqamlara açılan qapı

**Dəyərli oxucular!** AzadliqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını azadliqradiosu.az saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.

# Salam Sarvan: "Vətən sevgisinin MTN sayağı təbliğinin əleyhinəyəm"

## Şair Salam Sarvan AzadlıqRadiosunun "Penklub" verilişinin qonağı olub



**"FACİƏ ÖZÜNÜ VƏTƏNDƏ QƏRİB HİSS ETMƏKDİR"**

*- Azadlıq haqda nə düşünürsüz?*

- İnsan azadlığa məhkumdur. XXI əsrdə bir insanın və ya bir xalqın azadlıq uğrunda mübarizəsi çox gülməlidir. Yəni bu məsələ çoxdan həll edilməliydi. İnsan dünyaya azad gəlməliydi. Adəm Yer üzünə azad gəlməliydi.

*- Siz hansı cərgədəsiz?*

- Mən özümü azad sayıram.

*- 1998-ci ildə sizdən müsahibə götürürdüm. Dediz ki, neynirəm o azadlığı ki, mən o ölkədə azad gəzə bilmirəm. İndi azad gəzə bilirsiz?*

- Müəyyən komplekslər var. İndi mən özümü rahat hiss eləmirəm öz vətənimdə... Tənhalıq məsləsi indi geniş yayılıb. Facebookda oturan adamam, gənclər özlərinin tənha obrazlarını yaradırlar. Onlara elə gəlir ki, tənhalıq insanın poetik ovqatıdır, romantik halıdır. Bəzən "tənhayam" deyib fəxr edənlər var. Əslində tənhalıq daha çox sosial-ictimai bir hadisədir. Sosial tənhalıq nədir, insan həbsxanadan çıxıb, amma qohumları qəbul etmir, işə düzələ bilmir. Və ya insan istedadlıdır, mühit ona istedadını gerçəkləşdirməyə imkan vermir. Tənhalığın ən dəhşətli halı mədəni tənhalıqdır. İmmiqrantlar bunu daha çox hiss edirlər. Tutaq ki, bir çinli Azərbaycanda işləyir. Öz mədəniyyətindən, mentalitetindən qopub, fərqli auraya düşüb, özünü tənha sayır. Faciə bir çinlinin özünü Azərbaycanda və ya bir azərbaycanlının özünü Belarusda mədəni tənha hiss etməsi deyil. Faciə odur ki, insan vətənində özünü tənha hiss edir. Adam düşünür ki, mən axı bu mentalitetin daşıyıcısı deyildim, mən niyə burda yaşamalıydım?

**"KANADADA YAŞAMAQ İSTƏRDİM"**

- Bilirsiz, mən niyə Kanadanı sevirəm? Kanada geosiyasi oyunlarda iştirakdan çəkindi. İmperiya təfəkkürünü özündən uzaqlaşdırdı. Hətta Kanadaya birləşmək istəyən ölkələr vardı, bundan da imtina etdi ki, ona artıq ərazi, artıq torpaq lazım deyil. Buna görə də son 15 ildə insan həyatının keyfiyyətinə görə Kanada birinci olub. Bunu BMT rəqəmləri deyir. Üstəgəl də qar. Ona görə də məmnuniyyətlə Kanadada yaşayardım.

***Şahnaz Bəylərqızı,***
***Cavid Zeynallı***

# 100 milyon tirajla satılmış kitablar dilimizdə




Bakı "Kitab Klubu" ABŞ-ın dünyaca məşhur kitab seriyalarından olan "Cana məlhəm hekayələr" seriyasından 4 kitabı çapdan çıxarıb. Seriyanın (Amerika variantı "Chicken soup for soul. 101 More Stories To Open The Heart And Rekindle The Spirit" adlanır) müəllifləri ABŞ-da tanınmış mühazirəçi, psixoloq-yazıçılar Cek Kenfild və Mark Viktor Hansendir. Kitablarda insanları problemlər qarşısında geri çəkilməməyə həvəsləndirən, uğur qazanmaq üçün motivasiya verən hekayələr və esselər toplanıb. Bu seriyadan olan kitablar 50-dən çox dilə tərcümə edilib və indiyəcən 100 milyon nüsxədən çox satılıb. Kitablar ilk dəfədir ki, Azərbaycan dilində nəşr olunur.


## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Şahbaz Xuduoğlu: **"Bizim xalq qətlə yetirilən yazarların kitabını niyə almır?"**



Rövşən Qənbərov: **"Bəyənməyib "Like" düyməsini basana lənət"**



Seymur Baycan: **"Tənqidçilər müasir ədəbiyyatdan xəbərsizdir"**



Nərmin Kamal: **"Seymurun mədəniyyət nazirinə məktubundan ruhlanaraq"**



SIYAMƏK: **Şeirlər**

# Avropa Parlamentində Azərbaycanla bağlı qətnamə qəbul edildi

## Qətnamə Ermənistanı işğal etdiyi əraziləri tərk etməyə, Azərbaycanı isə insan haqlarına hörmət etməyə çağırır


Avropa Birliyinin bayrağı

*Avropa Parlamentinin Strasburqdakı sessiyasında Azərbaycanla Avropa Birliyi arasında assosiativ saziş üzrə danışıqların gedişinə dair qətnamə qəbul olunub. Assosiasiya müqaviləsi Avropa Birliyinin Azərbaycan və Ermənistanla apardığı danışıqların regionu daha təhlükəsiz etməsini, Dağlıq Qarabağ münaqişəsinin həllinə təsir vasitəsini, həmçinin Avropa Birliyinin dəstəyi ilə insan haqları, ifadə azadlığı, sərbəst toplaşma sahəsində demokratik islahatların həyata keçirilməsini nəzərdə tutur.*

Qətnamədə Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılması və Azərbaycanın nəzarətinə qaytarılması vurğulanır. İlk dəfədir ki, Avropa Parlamenti Ermənistanın DQ ətrafındakı rayonları işğaldan azad etməsini, həm hərbi həm də fiziki kontingenti çıxarmasını Assosiasiya sazişi üçün şərt olaraq ortaya qoyur. Ermənistan-AB münasibətlərinə dair qətnamədə deyilir: Üçüncü ölkənin ərazisinin işğalı beynəlxalq hüququn pozulmasıdır və Avropa qonşuluq siyasətinin əsas prinsiplərinə ziddir və bununla da bütün Şərq Tərəfdaşlığı layihəsini təhlükə altına qoyur.

AB regionda hərbi güclə bağlı çağırışlar, xüsusilə də Azərbaycanın yüksək hərbi xərclərindən narahatlığını ifadə edir. Qeyd olunur ki, ATƏT-ə üzv ölkələrin Azərbaycan və Ermənistanı silah və hərbi ehtiyatlarla təchizini dayandırmalıdır. Bunlarla yanaşı, Türkiyə də «regionda öz məsuliyyətini yerinə yetirməklə Dağlıq Qarabağ münaqişəsində konstruktiv rol oynamağa» çağırılır.

Azərbaycan hakimiyyətinə müraciət edilir ki, erməni kökənli şəxslərin ölkəyə girişinə əngəl yaratmasın və Ermənistana telefon zənglərinə qoyulmuş qadağa aradan qaldırılsın.

### AB HESAB EDİR Kİ, ƏMƏKDAŞLIQ SÜLHƏ TÖHFƏ VERƏCƏK

Assosiativ sazişdə insan haqları ilə bağlı məqam da gözdən qaçmayıb. Sənəddə Azərbaycanın energetika sahəsində əməkdaşlığı təqdir edilir, bununla yanaşı vətəndaşların fundamental haqları və azadlıqları, o cümlədən mülkiyyət hüquqları, vətəndaş cəmiyyətinin inkişafı, qanunun aliliyi, korrupsiyaya qarşı mübarizə, siyasi plüralizm, medianın və məhkəmələrin müstəqilliyi ilə bağlı problemlərlə bağlı narahatlıq da dilə gətirilir.

AŞPA-nın siyasi məhbuslar üzrə məruzəçi Christoph Strasserin ölkəyə mandatı üzrə girişinə icazə verilməsi də sənədə ayrıca bənd kimi salınıb. Burda siyasi məhbusların qeyd-şərtsiz azadlığa buraxılmasının vacibliyi da bildirilir.

### «CƏNUBİ QAFQAZIN TAM İNTEQRASİYASINA MANE OLAN ƏN MÜHÜM PROBLEM DAĞLIQ QARABAĞ PROBLEMİDİR»

Müzakirələr zamanı rumıniyalı deputat Monica Macovei bildirib ki, «Cənubi Qafqazın tam inteqrasiyasına mane olan ən mühüm problem Dağlıq Qarabağ


Monica Macovei

problemidir. Ona görə də inanıram ki, Avropa Birliyi bu münaqişənin həllində daha fəal olmalıdır. Ermənistanı işğal etdiyi torpaqlardan çıxmağa çağırmalı, çoxmillətli sülhyaratmaq qüvvələrinin iştirakı və etimad yaradan tədbirlərin icrası təmin edilməlidir.

Macovei Azərbaycanın başqa sahələrdə görməli olduğu işlərdən danışıb:

«Azərbaycanda hələ çox ciddi dəyişikliklərə ehtiyac var, xüsusilə də ədalət sistemi, korrupsiya, mütəşəkkil cinayətkarlıqla mübarizə və əlbəttə ki, insan hüquqları ilə bağlı beynəlxalq normaların tətbiqi sahəsində. Dövlət gəlirlərinin xərclənməsi və yuxarı eşelonlardakı korrupsiya hallarının araşdırılması da vacibdir və bu, hakimlər və siyasətçilər üçün əsl imtahandır».

### «BU İŞDƏ BİZİM AMBİSİYAMIZ GÜCLÜDÜR»

AB-nin genişlənmə komissarı Stefan Füle:

« Azərbaycana gəldikdə, Avropa Birliyi aydın şəkildə bildirib ki, bir çox sahələrdə demokratrik islahatlar yönündə irəliləyiş lazımdır. Biz həmçinin AŞPA-nın siyasi məhbuslar üzrə məruzəçisinə dəvətnamə verilməsinə çağırırıq. Bu işdə bizim ambisiyamız güclüdür. Bizim tərəflərə dəstəyimiz və gözləntimiz də güclüdür».

Ermənistana dair qətnamədə deyilir ki, Azərbaycanın işğal olunmuş ərazilərində erməni əsgərlərinin qanunsuz fəaliyyəti sarıdan ciddi narahatlıq var. Bu fəaliyyətə xüsusilə müntəzəm hərbi manevrlər, hərbi avadanlığın və heyətin dəyişdirilməsi aiddir. Ermənistana çağırış edilir ki, Dağlıq Qarabağda xidmət keçmək üçün əsgər göndərməyi dayandırsın. Həmçinin belə bir zərurət vurğulanır ki, Dağlıq Qarabağın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşmasını artırmaq üçün Ermənistan hakimiyyətinin siyasətinə dair xəbərlər araşdırılmalıdır.

Səsvermədə 520 deputat qətnamənin lehinə, 32 deputat əleyhinə səs verib, 24 deputat isə bitərəf qalıb. Avropa Parlamentinin bugünkü plenar iclasında Ermənistanla assosiativ saziş üzrə danışıqların gedişinə dair də qətnamə qəbul olunub.

### AVROPA PARLAMENTİNDƏN «EUROVİSİON» ÇAĞIRIŞI

Azərbaycana dair qətnamədə hakimiyyətə çağırış edilir: Bakıda yeni binaların tikintisi qismən «Eurovision» mahnı müsabiqəsi ilə əlaqələndirilir – bu davamlı tikintilər qanunvericiliyə uyğun aparılsın, əhalinin yerdəyişməsi şəffaf hüquqi proseduralarla həyata keçirilsin. Qətnamədə həmçinin belə narahatlıq ifadə olunur ki, hökumət «Eurovision»dan ölkədə demokratik və insan haqlarının yaxşılaşdırılması üçün istifadə edən insan haqları müdafiəçilərinə təzyiqləri artırır.

# Dünyada hərbi xərclərini ən çox artıran dövlət Azərbaycandır



Bakıda hərbi parad, 26 iyun 2011

Ötən il dünyada hərbi büdcəsini ən çox artıran ölkə Azərbaycan olub – 89 faiz. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutu dünya ölkələrinin hərbi büdcələri ilə bağlı illik hesabatını açıqlayıb. İnstitut hesabatında qeyd edir ki, Azərbaycanın hərbi büdcəsindəki bu böyük artım "Qarabağ müharibəsinin yenidən başlanması qorxusunu artırır".

Azərbaycanda son iki ildə orduya ayrılan xərclər 3 milyard dollardan çoxdur. Həmin sənədə görə, ümumiyyətlə, 2008-ci ildən bəri dünyada hərbi büdcəsini ən çox artıran Azərbaycan olub: təxminən 60 faiz.

Sonrakı yerlərdə Kipr, Polşa, Norveç qərarlaşıb. Ermənistan da son üç ildə büdcəsini artırır və artım faizinə görə dünyada 10-cudur. Qlobal böhrana görə, ötən il dünyada hərbi büdcəsini elə də çox ölkə artırmayıb. Orduya daha çox pul xərcləyənlər arasında Rusiya və Çin də var.

Amerika və Avropada hərbi büdcələr azaldıldığı üçün ümumilikdə 2011-ci ildə dünyada hərbi xərclər cəmi 0,3 faiz artıb. Amerika ilə yanaşı Fransa, Almaniya, Hindistan, Britaniya, Braziliya da hərbi xərclərini azaldıblar. Amma Rusiya hərbi büdcəsini 8 milyard dollar artırıb – yəni 9,3 faiz. Bununla da Rusiya hərbi xərclərin həcmi göstəricisinə görə Fransa və Britaniyanı keçib və dünyada ordusuna ən çox pul xərcləyən üçüncü ölkəyə çevrilib.

Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun izahına görə, Rusiya sovet dövründən qalma silahlarının 70 faizini 2020-ci ilə qədər müasirləşdirməyi planlaşdırır. İnstitut Rusiyanın hərbi büdcəsinin qarşıdakı illərdə daha da artacağını proqnozlaşdırır. Çin isə hərbi büdcəsini 6,7 faiz artırıb. 2011-ci ildə Çin öz ordusuna 143 milyard dollar xərcləyib.

Çin hərbi xərclərə görə dünyada ikincidir. Ordusuna ən çox pul xərcləyən isə yenə də ABŞ-dır - 711 milyard dollar. Bu, Çin ordusuna xərclərdən 5 dəfə çoxdur. Amma ABŞ ötən il hərbi xərclərini 1,2 faiz azaldıb.

## Söküntülərin statistikası açıqlandı

Son 3 ildə Bakıda 3915 mənzil və obyekt sökülüb. Söküntülər ən çox Beşmərtəbədən Heydər Əliyev Sarayınadək olan ərazidəki küçələrdə baş verib. Bu ərazidə 2009-cu ildən 2012-ci ilin martına kimi 2524 mənzil və obyekt sökülüb. Bu rəqəmlər Azad İqtisadiyyata Yardım İctimai Birliyinin hesabatında öz əksini tapıb.

Hesabata əsasən, məcburi sökülən daşınmaz əmlakın sayı bundan çoxdur. Çünki bəzi hallarda evləri və sahibkarlıq obyektləri sökülərkən vətəndaşlar bu barədə nə mediaya, nə də QHT-lərə məlumat verirlər.

***Rəna Allahverdiyeva***

# AzadlıqRadiosunda verilişlər

| | |
|---|---|
| 8:00 | AzadlıqFM / Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Korrupsiyametr/ Qaynar Xətt |
| 9:00 | İz / Korrupsiyametr / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 12:05 | AzadlıqFM / Qaynar Xətt / Pen Club / İz / Korrupsiyametr |
| 13:05 | Qərb musiqisi |
| 14:05 | 14-24 / Qaynar Xətt / Azadlıq Bölgələrdə / Pen club / AzadlıqFM / İz / Korrupsiyametr |
| 15:00 | Xəbərlər (şənbə, bazar) |
| 15:05 | Qərb musiqisi. AzadlıqFM / Korrupsiyametr (şənbə-bazar) |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər (şənbə, bazar) |
| 16:05 | Qərb musiqisi / İşdən sonra (şənbə, bazar) |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra / Korrupsiyametr (hər cümə axşamı) |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Kontekst / Online-vəkil (şənbə) |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Qaynar Xətt / Pen club |
| 20:30 | 14-24 / Qaynar Xətt / İslam və demokratiya / Pen club / İz / Korrupsiyametr |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Qafqaz Qovşağı |
| 23:00 | Xəbərlər |
| 23:05 | İşdən sonra / İz / Azadlıq bölgələrdə / 14-24 |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Dayanacaqda əkilən ağaclar



***Avtobus dayanacağı ağacların arxasında. 18.04.2012. Yükləyib: Bakıdan***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## Multimedia

## Son videolar:

VİDEO Və FOTOLAR



Multimedia

Salam Sarvan: «İçkiyə münasibətim yaxşıdır»



Azərbaycanda (VIDEO)

"Dalğa"çıların növbəti "flashmob"u



Azərbaycanda (VIDEO)

Pensiyaçıların etirazı



Multimedia

Sulutəpədə evləri sökülənlər Bakı-Şamaxı yolunu bağladılar



Multimedia

Azərbaycan və Ermənistan arasında mədəni əlaqələr-



Videolar

Jurnalist İdrak Abbasov xəstəxanada

**Qaynar Xətt:** 436-77-41

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Çap Evi" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz